Əlixan Musayev



# VƏTƏNİ QORUYAN ASLANLAR

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

# Müqəddimə

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyir, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar və kimi də azdırsa, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Sonra isə...

Bizi müsəlman kimi yaradan, doğru yola yönəldərək bizə hidayət verən, Peyğəmbərimizin ﷺ sünnəsini yaşamaqda bizə kömək edən, aləmlərin Rəbbi, haqq-hesab gününün Hökmdarı olan Uca Allaha şükürlər və həmd-sənalar olsun!

Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱصْبِرُوا۟ وَصَابِرُوا۟ وَرَابِطُوا۟ وَٱتَّقُوا۟ ٱللَّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ ﴾

**"Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, *sərhəd boyu* növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!"**[1]

Peyğəmbərimiz ﷺ bu ayədə zikr edilən "ribat"ın (sərhəddə keşik çəkməyin) fəziləti barədə belə buyurmuşdur: **"Allah yolunda bir gün sərhəddə keşik çəkmək dünya və onun üzərindəkilərdən daha xeyirlidir".**[2]

---

[1] "Ali-İmran" surəsi, 200.

[2] "Səhih əl-Buxari", 2892.

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allah yolunda bir saat keşik çəkmək, Qədr gecəsini [Məscid əl-Həramda] qara daşın yanında ibadətlə keçirməkdən daha xeyirlidir".**[1]

Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kimin ayaqları Allah yolunda toz-torpağa bulaşarsa, Allah ona Cəhənnəm odunu haram edər".**[2]

Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allah yolunda bir gün və bir gecə sərhəddə keşik çəkmək, bir ay [gündüzləri] oruc tutmaq, gecələrini də qiyamda (gecə namazında) keçirməkdən daha xeyirlidir. Və əgər [mömin adam sərhəddə keşik çəkərkən] ölərsə, etdiyi yaxşı əməlləri davamlı olaraq onun savabını artırar, ona xeyirli ruzi bəxş edilər və o, fitnədən qorunar".**[3]

---

[1] "Səhih İbn Hibban", 4603; "Səhih ət-Tərğib vət-Tərhib", 1223.

[2] "Səhih əl-Buxari", 907.

[3] "Səhih Muslim", 1913.

Hədisin şərhi:

Sərhəddə keşik çəkən mömin əsgər şəhid olduqdan sonra, vaxtı ilə etdiyi yaxşı əməlləri Qiyamət gününədək ona savab qazandırar. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Dünyadan köçən hər kəsin əməl dəftərinə möhür vurulur. Yalnız Allah yolunda sərhəd boyu keşik çəkən kimsədən başqa – onun əməli Qiyamət gününədək onun savablarını artırır”.**[1]

Habelə, sərhəddə keşik çəkən mömin əsgər şəhid olduqdan sonra, Qüdrətli Allah ona bərzəx aləmində xeyirli ruzi və bol nemətlər bəxş edir. Bu xüsusda Uca Allah belə buyurur:

﴿ وَلَا تَحۡسَبَنَّ ٱلَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ ٱللَّهِ أَمۡوَٰتَۢاۚ بَلۡ أَحۡيَآءٌ
عِندَ رَبِّهِمۡ يُرۡزَقُونَ ١٦٩ فَرِحِينَ بِمَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦ

[1] “Sunən Əbu Davud”, 2500.

وَيَسۡتَبۡشِرُونَ بِٱلَّذِينَ لَمۡ يَلۡحَقُواْ بِهِم مِّنۡ خَلۡفِهِمۡ أَلَّا خَوۡفٌ عَلَيۡهِمۡ
وَلَا هُمۡ يَحۡزَنُونَ ﴿١٧٠﴾ ۞ يَسۡتَبۡشِرُونَ بِنِعۡمَةٖ مِّنَ ٱللَّهِ وَفَضۡلٖ
وَأَنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجۡرَ ٱلۡمُؤۡمِنِينَ ﴿١٧١﴾

**“Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və lütfünə görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər.”**[1]

Şəhidin fitnədən qorunmasına gəlincə, bu da o deməkdir ki, qəbirdə hər kəsdən: “Rəbbin

[1] “Ali-İmran” surəsi, 169-171.

kimdir? Peyğəbərin kimdir? Dinin nədir?"– deyə soruşan iki mələk – Nəkir və Munkir adlı mələklər, Allah yolunda şəhid olan kimsənin yanına gəlib ona bu sualları verməyəcəklər.[1]

***Allah rizasını qazanmaq məqsədilə dinini, vətənini, canını, malını və namusunu qoruyaraq ölən mömin əsgər şəhid sayılırmı?***

Bəli, sayılır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Dinini qoruyaraq vuruşub ölən kimsə şəhiddir; canını qoruyaraq vuruşub ölən kimsə şəhiddir; malını qoruyaraq vuruşub ölən kimsə şəhiddir; əhli-əyalını qoruyaraq vuruşub ölən kimsə şəhiddir".**[2]

Başqa bir hədisdə o ﷺ belə buyurmuşdur: **"Kim Allahın Kəlməsi[3] hər şeydən uca olsun**

---

1 "Şərh Riyadus-Salihin", 5/355.

2 "Sunən Əbu Davud", 4772; "Səhih əl-Cami", 6445.

3 Bu hədisdə "Allahın kəlməsi" deyildikdə, "la ilahə illəllah" ifadəsi qəsd edilir.

**deyə vuruşarsa, Allah yolunda [vuruşmuş] sayılar".**[1]

Yenə bir hədisdə o ﷺ belə buyurmuşdur: **"[Döyüşdə] ölən insanlar üç sinifdir:**

**[Birincisi,] canı və malı ilə Allah yolunda vuruşan mömindir ki, düşmənlə qarşı-qarşıya gəldiyi zaman son nəfəsinədək onunla vuruşub şəhid olar. Qəlbi təqva ilə dolu olan bu şəhid, Allahın ərşi altında yerləşən çadırının içində olacaq. Peyğəmbərlər ondan ancaq peyğəmbərlikləri ilə üstün sayılarlar.**

**[İkincisi,] canı və malı ilə Allah yolunda vuruşan günahkar mömindir ki, düşmənlə qarşı-qarşıya gəldiyi zaman son nəfəsinədək onunla vuruşub şəhid olar. Bu onun günahlarını və xətalarını silib aparan bir təmizləyicidir. Şübhəsiz ki, qılınc, günahları silib aparan bir silgidir. Belə mömin Cənnətə istədiyi qapıdan daxil olar. Cənnətin səkkiz qapısı**

---

[1] "Səhih əl-Buxari", 123.

**vardır. Bu qapıların biri digərindən üstündür. Cəhənnəmin isə yeddi qapısı vardır.**

**[Üçüncüsü isə] canı və malı ilə vuruşan münafiqdir ki, düşmənlə qarşı-qarşıya gəldiyi zaman son nəfəsinədək onunla vuruşub ölər. Beləsi Cəhənnəmlik olar. Çünki qılınc, nifaqı silib aparmağa qadir deyildir".**[1]

### *Allahın rizasını diləyən mömin əsgər düşməndən qorxub qaçarmı?*

Əlbəttə ki, yox, əksinə, Allah yolunda canından keçmək arzusunda olan mömin adam şəhid olmağa hazır olar və daim öz Rəbbinə qovuşmağa can atar. Bu xüsusda Uca Allah buyurur:

﴿مِّنَ ٱلۡمُؤۡمِنِينَ رِجَالٞ صَدَقُواْ مَا عَٰهَدُواْ ٱللَّهَ عَلَيۡهِۖ فَمِنۡهُم مَّن قَضَىٰ نَحۡبَهُۥ وَمِنۡهُم مَّن يَنتَظِرُۖ وَمَا بَدَّلُواْ تَبۡدِيلٗا﴾

[1] "Səhih İbn Hibban", 4663; "Mişkatul-Məsabih", 3859.

**“Möminlər içərisində Allaha verdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də *şəhid olmasını* gözləyir. Onlar *əhdlərini* əsla dəyişdirməyiblər”.**[1]

Ömər ibn əl-Xəttab رضي الله عنه xəlifəliyi dövründə döyüş olmayan bir yerdə, yəni Peyğəmbərin ﷺ şəhərində dua edib deyərmiş:

*Allahım, Öz yolunda şəhidlik bəxş et mənə,*
*Rəsulun ﷺ şəhərində ölmək nəsib et mənə!*[2]

Nəhayət, Uca Allah onu istədiyi şəhidlik məqamına yetişdirdi.

Rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: “Bədr döyüşündə Rəsulullah ﷺ səhabələrinə buyurdu: “Genişliyi göylərin və yerin genişliyi qədər olan Cənnətə tələsin!” Bu vaxt Umeyr ibn Humam əl-Ənsari ona yaxınlaşıb dedi: “Ya Rəsulullah, genişliyi göylərin və

---

[1] “əl-Əhzab” surəsi, 23.

[2] “Səhih əl-Buxari”, 1890.

yerin genişliyi qədər olan Cənnətmi?" Rəsulullah ﷺ: "Bəli!"– deyə buyurdu. Umeyr dedi: "Bəh, bəh!" Rəsulullah ﷺ ondan: "Niyə "Bəh, bəh!" dedin?"– deyə soruşdu. Umeyr dedi: "Vallahi, ya Rəsulullah, bunu deməkdə məqsədim, ancaq Cənnət əhlindən olmaq arzum idi". Rəsulullah ﷺ ona: "Sən Cənnət əhlindənsən!"– dedi. Sonra Umeyr ox qabından bir neçə xurma çıxardıb yeməyə başladı. Bu əsnada o öz-özünə: "Bu xurmaların hamısını yeyib qurtaranadək mən həyatda qalacağamsa, bu çox uzun bir həyat olar"– dedi, sonra əlindəki xurmaları kənara atıb döyüşə atıldı və şəhid oldu".[1]

Yenə rəvayət edilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Əmim Ənəs ibn ən-Nədr Bədr döyüşündə iştirak etməmişdi. Odur ki, o [Peyğəmbərə ﷺ] dedi: "Ya Rəsulullah, mən sənin müşriklərə qarşı apardığın ilk döyüşdə

[1] "Səhih Muslim", 1901.

iştirak etməmişəm. Allah [nə vaxtsa] onlara qarşı döyüşməyi mənə nəsib edərsə, mənim necə vuruşacağıma şahid olacaq". [Nəhayət,] Uhud döyüşündə müsəlmanlar məğlub olarkən əmim dedi: "Allahım, mən bunların (yəni səhabələrin) etdikləri [xətaya] görə Səndən üzr diləyir və onların (yəni müşriklərin) etdikləri [günahlardan] Sənə sığınıram!" Sonra o, döyüşə atıldı. [İrəlidə o,] Səd ibn Muazla rastlaşdı və dedi: "Ey Səd ibn Muaz! Mən Cənnətə [tələsirəm]. Nədrin Rəbbinə and olsun ki, mən Uhud tərəfdən gələn Cənnət iyini duyuram". [Döyüşdən sonra] Səd dedi: "Ya Rəsulullah, onun elədiyini mən edə bilmədim."

Ənəs deyir ki: "Biz onu [ölənlərin arasında] tapdıq. Onun bədənində səksəndən çox qılınc, nizə və ox yarası var idi. Müşriklər onun cəsədini elə tanınmaz hala salmışdılar ki, bacısından başqa heç kəs onu tanımadı – bacısı onu barmaqlarının ucundan tanıdı. Biz yəqin

bilirdik ki, bu ayə[1] onun və onun kimilər barəsində nazil olmuşdur: "**Möminlər içərisində Allaha verdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də** ***şəhid olmasını*** **gözləyir. Onlar** ***əhdlərini*** **əsla dəyişdirməyiblər**".[2]

Şəhidlik zirvəsinə can atan möminlər haqqında Rəsulullah ﷺ belə buyurmuşdur: **"Kim Allahdan səmimi-qəlbdən şəhidlik diləyərsə, yatağında ölsə belə, Allah onu şəhidlərin mənzillərinə çatdırar".**[3]

Heç şübhəsiz ki, Allahın rəhmətinə qovuşacağına ümid bəsləyən mömin adam Allahdan başqa heç kəsdən qorxmaz və son nəfəsinədək Rəbbinin möminlər üçün hazırladığı Cənnətə tələsər. Rəvayət edilir ki, Seyfullah (Allahın qılıncı) ləqəbi ilə tanınmış Xalid ibn

[1] "əl-Əhzab" surəsi, 23.

[2] "Səhih əl-Buxari", 2805, 2806.

[3] "Səhih Muslim", 1909.

Vəlid[1] رضي الله عنه döyüşlərin birində düşmənin başçısına belə bir məktub yazmışdır: “Ya İslamı qəbul et, canını qurtar, ya da sənin və qövmünün cizyə verəcəyinə dair razılığını bildir. Yox, əgər bundan imtina etsən, onda özündən başqa heç kəsi qınama. Çünki mən sənin üstünə elə insanlarla gəlmişəm ki, siz yaşamağı sevdiyiniz kimi, onlar da, Allah yolunda şəhid olmağı sevirlər”.[2]

Həmçinin, rəvayət edilir ki, Yərmuk döyüşündə, müsəlmanlar düşmənə qarşı vuruşarkən sayları otuz min, düşmənin sayı isə iki yüz qırx min olmuşdur. Həmin vaxt mücahidlərdən biri Əbu Ubeydə ibn əl-Cərrahın رضي الله عنه yanına gəlib ona belə demişdir: “Mən artıq şəhid olmağa hazıram. Rəsulullaha ﷺ deyəcək sözün varsa, de, onunla görüşəndə sənin dediyini ona çatdırım”. Əbu Ubeydə ibn əl-

[1] “Musnəd İmam Əhməd”, 5/299.

[2] “Tarix ət-Təbəri”, 3/348.

Cərrah ﵁ da ona belə cavab vermişdir: “Salamımı Rəsulullaha ﷺ çatdır, sonra de: “Ya Rəsulullah, biz, həqiqətən də, Rəbbimizin bizə vəd etdiyinin haqq olduğunu gördük”. Bundan sonra həmin adam döyüşə atıldı və son nəfəsinədək vuruşub şəhid oldu.[1]

Ey vətənini qoruyan aslanlar! Bir baxın, bu adam Allah yolunda şəhid olacağına və sevgili Peyğəmbərinə ﷺ qovuşacağına necə əmin idi. Vallahi, kim nəyə can atırsa, Allah ona onu nəsib edir. Belə möminlər barədə Uca Allah buyurur:

﴿وَمَن يُطِعِ ٱللَّهَ وَٱلرَّسُولَ فَأُوْلَٰٓئِكَ مَعَ ٱلَّذِينَ أَنۡعَمَ ٱللَّهُ عَلَيۡهِم مِّنَ ٱلنَّبِيِّـۧنَ وَٱلصِّدِّيقِينَ وَٱلشُّهَدَآءِ وَٱلصَّٰلِحِينَۚ وَحَسُنَ أُوْلَٰٓئِكَ رَفِيقٗا﴾

[1] “əl-Bidayə vən-Nihayə”, 7/12.

**“Allaha və *Onun* Rəsuluna itaət edən kimsələr, Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərin, siddiqlərin, şəhidlərin və əməlisalehlərin yanında olacaqlar. Onlar necə də gözəl dostlardır.”**[1]

### *Mömin əsgər öz moizəsi ilə bütün ordunu ruhlandıra bilərmi?*

Əlbəttə, əgər Allah istəsə, mömin adamın səmimi-qəlbdən söylədiyi bir söz bütün ordunu ruhlandıra bilər, bununla da o ordu qalib gələr. Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ حَرِّضِ ٱلۡمُؤۡمِنِينَ عَلَى ٱلۡقِتَالِۚ ﴾

**“Ey Peyğəmbər, möminləri döyüşə ruhlandır!”**[2]

Bir zaman Rəsulullah ﷺ Əbu Talhə əl-Ənsarini رضي الله عنه tərifləyib belə demişdir: **“Əbu**

---

[1] “əl-Əhzab” surəsi, 23.

[2] “əl-Ənfal” surəsi, 65.

**Talhənin döyüşdəki səsi döyüşdə vuruşan min kişidən daha xeyirlidir”**.[1]

Rəvayət edilir ki, müsəlmanlar qureyzəlilərin qalasını mühasirəyə aldıqları zaman Əli ibn Əbu Talib ﵁ qabağa çıxdı və uca səslə möminləri səsləyib dedi: “Ey mömin mücahidlər! Vallahi, biz ya Həmzənin daddığını dadacaq[2], ya da bunların qalasını darmadağın edəcəyik”. Qureyzəlilər bu sözləri eşidər-eşitməz qorxularından dərhal təslim oldular”.[3]

Rəvayət edilir ki, sultan Fatih Mehmet Konstantinopolun fəthindən qabaq ordunun sərkərdələrini öz çadırına toplamış, son gös-

---

[1] “Mustədrək əl-Hakim”, 3/352; “Səhih əl-Cami”, 5081.

[2] Burada Əli ibn Əbu Talib ﵁ Həmzə ﵁ kimi şəhid olmağı təmənna edir.

[3] “əs-Sira” İbn Kəsir, 3/234; “əs-Sira” İbn Hişam, 2/240.

tərişlərini verdikdən sonra onlara belə vəz etmişdir: "Əgər Konstantinopolun fəthi bizə nəsib olarsa, Rəsulullahın ﷺ hədisi və xəbər verdiyi möcüzəsi bizə aid ediləcək və biz bu hədisdə zikr edilən şərəfə müvəffəq olacağıq. Əsgər övladlarımıza bir-bir xəbər verin ki, bizim qazanacağımız bu böyük zəfər İslamın dəyərini və şərəfini bir qədər də ucaldacaq. Hər bir əsgər İslam şəriətini bilməli, bu [kamil] şəriəti hər şeydən üstün tutmalıdır. O əsgərlərdən heç biri İslama zidd hərəkət etməməli, kilsələrə və məbədlərə toxunmamalı, onları viran qoymamalı, habelə, döyüşə qatılmayan rahiblərə, qocalara, qadınlara və uşaqlara dəyməməlidirlər..."[1]

Fatih Mehmetin bəzi tarixi sözləri:

*"Eger kanım ile yükselecekse Hz. Muhammed'in dini; durmayın kılıçlar doğrayın beni";*

---

[1] "Sultan Muhammәd әl-Fatih. 1453", Salim әr-Rәşidi, sәh. 126.

*“Biz İslamiyyetin kılıcını elimizde tutarız. Ancaq bunca zahmet karşılığında qazi [Allah yolunda vuruşan] ünvanını elde edemeden ölürsem Allah və Peyğamber'in katında yüzlerine nasıl bakarım?”;*

*“Biz toprakları değil gönülleri feth etmeye gidiyoruz”;*

*[Gemilerin karadan yürütülecegini söylerken demişdir:] “İmkanın sırrını görmek için imkansızı denemek lazım”;*

*“Baykuştan pervamız yok, biz şahinler sürüsüyüz.”*

### *Mömin əsgər Allah yolunda vuruşub şəhid olduğu zaman ölüm ağrısını hiss edirmi?*

Uca Allah Onun yolunda canından keçən mömin qulunun ruhunun bədənindən çıxmasını asanlaşdırdığı kimi, onun ölüm ağrısını da xəfifləşdirir.[1] Bu xüsusda Peyğəmbərimiz ﷺ belə buyurmuşdur: **“Şəhid ölüm ağrısını**

[1] “Şərh Riyadus-Salihin”, 5/374.

**duymaz. Yalnız sizdən birinizin çimdik ağrısını hiss etdiyi qədər ağrı hiss edər".**[1]

Üstəlik, o bu şəhidlikdən elə bir həzz alır ki, bir daha dünyaya qayıdıb şəhid olmağını arzulayır. Rəsulullah ﷺ buyurur: **"Yer üzündə elə bir insan yoxdur ki, vəfat etdikdən sonra Allah yanında çoxlu xeyirə nail olsun, sonra da sizin yanınıza qayıtmaq istəsin. Yalnız Allah yolunda şəhid olmuş kimsədən başqa. Belə ki, o, dünyaya qayıdıb bir daha şəhid olmağını istəyər".**[2]

Buna məşhur səhabə Abdullah ibn Amr əl-Ənsarini رضي الله عنه misal göstərmək olar. Rəvayət edilir ki, Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "Atam Abdullah ibn Amr ibn Həram Uhud döyüşündə şəhid olduqdan sonra, mən Rəsu-

---

[1] "Sunən ət-Tirmizi", 1668; "Səhih İbn Hibban", 4655; "Sunən əd-Darimi", 2542; "Mişkat əl-Məsabih", 3836.

[2] "Musnəd İmam Əhməd", 5/318; "Silsilət əl-Əhadis əs-Səhihə", 2228.

lullaha ﷺ rast gəldim və o məndən: "Niyə bikefsən, ey Cabir?"– deyə soruşdu. Mən dedim: "Ya Rəsulullah, atam Uhud döyüşündə şəhid olmuş, ailəmizin təminatı və atamın borclarını ödəmək mənim öhdəmə düşmüşdür". Onda Rəsulullah ﷺ dedi: "Allahın sənin atana bəxş etdiyi nemətlər barədə sənə müjdə verimmi?" Dedim: "Söylə, ya Rəsulullah!" O dedi: **"İndiyədək Allah danışdığı hər kəslə yalnız pərdə arxasından danışmışdır. Sənin atanı isə Allah diriltdikdən sonra Özü ilə atan arasında heç bir pərdə olmadan, bilavasitə danışıb ona belə buyurdu: "Ey qulum, Məndən istə, sənə istədiyini verim!" Atan: "Ey Rəbbim, məni yenidən həyata qaytar, Sənin yolunda vuruşub bir daha şəhid olum"– dedi. Allah isə ona belə cavab verdi: "Mən hər kəsin öldükdən sonra dirilib dünyaya qayıtmayacağını artıq əzəldən müəyyən etmişəm". Onda atan dedi: "Ey Rəbbim, elə**

**isə mənim arxamca gələn mömin qardaşlarıma bizə bəxş etdiyin nemətlər barədə xəbər ver!" Uca Allah da bu ayələri nazil etdi:**

﴿ وَلَا تَحۡسَبَنَّ ٱلَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ ٱللَّهِ أَمۡوَٰتَۢاۚ بَلۡ أَحۡيَآءٌ
عِندَ رَبِّهِمۡ يُرۡزَقُونَ ١٦٩ فَرِحِينَ بِمَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦ
وَيَسۡتَبۡشِرُونَ بِٱلَّذِينَ لَمۡ يَلۡحَقُواْ بِهِم مِّنۡ خَلۡفِهِمۡ أَلَّا خَوۡفٌ عَلَيۡهِمۡ
وَلَا هُمۡ يَحۡزَنُونَ ١٧٠ يَسۡتَبۡشِرُونَ بِنِعۡمَةٖ مِّنَ ٱللَّهِ وَفَضۡلٖ
وَأَنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجۡرَ ٱلۡمُؤۡمِنِينَ ١٧١ ﴾

**"Allah yolunda öldürülənləri əsla ölü sanma. Əksinə, *onlar* diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətə fərəhlənir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri müjdəsinə sevinirlər. Onlar Allahın neməti və lütfünə**

**görə, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağı müjdəsinə sevinirlər.”**[1]

Ey möminlər, diqqət edin! Abdullah ibn Amr ibn Həram رضي الله عنه Cənnətdən heç nə istəmir, yalnız yenidən dünyaya qaytarılmağı və bir daha şəhidliyin şirinliyini dadmaq istəyir.

## Şəhidin fəzilətləri

Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Allah yanında şəhid üçün xislətlər vardır: [yarasından] axan ilk damla qanla günahları bağışlanar, Cənnətdəki yerini görər, qəbir əzabından qurtular; ən böyük dəhşətdən**[2] **qorunar**[1]**; iman bəzəyi ilə bəzədilər;**

---

[1] “Sunən ət-Tirmizi”, 3256; “Səhih əl-Cami”, 7905.

[2] Burada söhbət Qiyamət gününün dəhşətindən gedir. O günün dəhşətindən qorunacaq möminlər barədə Uca Allah belə buyurur: **“Əzəldən özlərinə ən gözəl aqibət yazılmış kimsələrə gəlincə, onlar Cəhənnəm odundan uzaqlaşdırılacaqlar. Onlar onun xışıltısını belə eşitməyəcəklər. Onlar ürəkləri istədikləri**

**[yetmiş iki[2]] huri ilə evləndirilər və bir də öz yaxınlarından yetmiş nəfərə şəfaətçilik edər”.**[3]

O ﷺ həmçinin demişdir: **“Allah yolunda vuruşub yaralanan kimsə Qiyamət günü elə yaralı halda həşr ediləcək. Onun yarasından axan qanın rəngi zəfəran rəngində olacaq və bu qandan müşk iyi gələcəkdir”.**[4]

Yenə o ﷺ demişdir: **“Şəhidlər Bariqdə – Cənnət qapısının önündən axan çayın başında,**

---

**nemətlər arasında əbədi qalacaqlar. Ən böyük dəhşət onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb *deyəcəklər*: “Bu sizə vəd olunmuş gününüzdür!”** (“əl-Ənbiya” surəsi, 101-103).

[1] Başqa bir rəvayətdə deyilir ki: **“... onun başına vüqar tacı qoyular – elə bir tac ki, onun üzərindəki yaqutlardan hər biri bu dünya və onun içindəkilərdən daha xeyirlidir”.** (“Sunən ət-Tirmizi”, 1663).

[2] Bu söz İmam Tirmizinin “Sunən” əsərində (1663) rəvayət edilmişdir.

[3] “Sunən ət-Tirmizi”, 1756; “Səhih ət-Tərğib vət-Tərhib”, 1375.

[4] “Musnəd İmam Əhməd”, 5/243; “Silsilət əl-Əhadis əs-Səhihə”, 3498.

**yaşıl çadırın içində olacaqlar. Orada onlara səhər və axşam bol ruzi veriləcəkdir".**[1]

Rəvayət edilir ki, Ənəs ibn Malik ﵁ demişdir: "Bir dəfə bir qadın Rəsulullahın ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, yuxuda gördüm ki, Mədinədən çıxıb Cənnətə daxil olmuşam. [Bu vaxt] elə bir gurultu qopdu ki, onun səsindən Cənnət lərzəyə gəldi. Bir də baxdım ki, on iki nəfər gətirdilər – filankəsi, filankəsi, filankəsi, filankəsi,.. deyə o qadın on iki nəfərin adını çəkdi. Bu hadisədən bir qədər əvvəl Rəsulullah ﷺ ordu hazırlayıb döyüşə göndərmişdi. Qadın davam edib dedi: "Əyinlərində ağ paltar var idi, boyun damarlarından da qan axırdı. Sonra belə bir nida gəldi: "Aparın bunları Beydəx çayına!" Onları aparıb Beydəx çayına saldılar. Nəhayət, onlar üzləri on dörd gecəlik ay kimi nur saçdığı halda çaydan çıx-

[1] "Musnəd İmam Əhməd", 1/266; "Səhih əl-Cami", 3742.

dılar. Sonra onlar üçün içi tər xurmalarla dolu qızıl sinilər gətirdilər. Onlar bu xurmalardan istədikləri qədər yedilər. Hansı böyürləri üstə çevrilirdilərsə, istədikləri qədər meyvə yeyirdilər. Mən də onlarla bərabər o xurmalardan yedim". [Bunu deyəndən sonra qadın çıxıb getdi.] Elə bu vaxt həmin ordudan bir çapar gəlib dedi: "[Ya Rəsulullah,] başımıza belə-belə işlər gəldi, sonra da filankəs, filankəs, filankəs,.. şəhid oldu"– deyən çapar on iki kişinin adını çəkdi. Onda Rəsulullah ﷺ həmin qadını yanına çağırtdırıb ona: "Yuxunu bir də danış!"– dedi. Qadın: "Filankəsi, filankəsi... gətirdilər"– deyə çaparın xəbər verdiyi adları bir-bir sadaladı".[1]

[1] "Səhih İbn Hibban", 6022; "Silsilət əl-Əhadis əs-Səhihə", 3498.

# Dualar

Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Sizin Rəbbiniz Həyalı və Səxavətlidir. Əllərini Ona tərəf qaldırıb dua edən bəndəsinin əllərini boş qaytarmağa həya edir”.**[1]

Elə isə, ey möminlər, Allaha çoxlu dua edin ki, sizə zəfər bəxş etsin:

﴿رَبَّنَا ٱغْفِرْ لَنَا ذُنُوبَنَا وَإِسْرَافَنَا فِىٓ أَمْرِنَا وَثَبِّتْ أَقْدَامَنَا
وَٱنصُرْنَا عَلَى ٱلْقَوْمِ ٱلْكَٰفِرِينَ﴾

**“Ey Rəbbimiz! Günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla; qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!”**[2]

﴿رَبِّ ٱنصُرْنِى عَلَى ٱلْقَوْمِ ٱلْمُفْسِدِينَ﴾

---

1 “Sunən Əbu Davud”, 1488; “Səhih əl-Cami”, 2070.
2 “Ali-İmran” surəsi, 147.

**"Ey Rəbbim! Fitnə-fəsad törədən qövmə qarşı mənə yardım et!"**[1]

(( اللَّهُمَّ أَصْلِحْ لَنَا دِينَنَا الَّذِي هُوَ عِصْمَةُ أَمْرِنَا، وَأَصْلِحْ لَنَا دُنْيَانَا الَّتِي فِيهَا مَعَاشِنَا، وَأَصْلِحْ لَنَا آخِرَتِنَا الَّتِي إِلَيْهَا مَعَادِنَا، وَاجْعَلِ الْحَيَاةَ زِيَادَةً لَنَا فِي كُلِّ خَيْرٍ، وَاجْعَلِ الْمَوْتَ فِيها رَاحَةً لَنَا مِنْ كُلِّ شَرٍّ ))

"Allahım, ismətli olan dinimizi, yaşadığımız dünyamızı və qayıdacaq axirətimizi islah et! Xeyirli işlər üçün ömrümüzü artır, ölümümüzü isə şər əməllərdən qurtarmaq üçün rahatlıq vasitəsi et!"[2]

(( اللَّهُمَّ يَا مُقَلِّبَ الْقُلُوبِ ثَبِّتْ قُلُوبَنَا عَلَى دِينِكَ ))

"Ey qəlbləri çevirən Allahım, qəlbimizi dinin üzərində sabit et!"[3]

---

[1] "əl-Ənkəbut" surəsi, 30.
[2] "Səhih Muslim", 6841.
[3] "Sunən ət-Tirmizi", 3/180.

(( اللَّهُمَّ مُصَرِّفَ الْقُلُوبِ صَرِّفْ قُلُوبَنَا عَلَى طَاعَتِكَ ))

"Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt!"[1]

(( اللَّهُمَّ إِنَّا نَجْعَلُكَ فِي نُحُورِهِمْ وَنَعُوذُ بِكَ مِنْ شُرُورِهِمْ ))

"Allahım, düşmənin yaxasını Sənə tapşırır və onların şərindən Sənə sığınırıq!"[2]

(( اللَّهُمَّ أَنْتَ عَضُدُنَا، وَأَنْتَ نَصِيرُنَا، بِكَ نَجُولُ، وَبِكَ نَصُولُ، وَبِكَ نُقَاتِلُ ))

"Allahım, dayağımız da Sənsən, köməyimiz də Sənsən! Sənin sayəndə hərəkət edir, Sənin sayəndə (düşmənin üstünə) atılır və Sənin sayəndə vuruşuruq".[3]

---

1 "Səhih Muslim", 6692.

2 "Sunən Əbu Davud", 2/89.

3 "Sunən Əbu Davud", 3/42.

(( اللَّهُمَّ مُنْزِلَ الْكِتَابِ، سَرِيعَ الْحِسَابِ، اهْزِمِ الأَحْزَابَ، اللَّهُمَّ اهْزِمْهُمْ وَ زَلْزِلْهُمْ ))

"Kitabı nazil edən və haqq-hesabı tez çəkən Allahım, [düşməndən olan] dəstələri darmadağın et! Allahım, onları darmadağın et və onları sarsıt!"[1]

(( حَسْبُنَا اللهُ وَنِعْمَ الْوَكِيلُ ))

"Allah bizə yetər, O nə gözəl Qoruyandır!"[2]

(( اللَّهُمَّ إِنَّا نَعُوذُ بِكَ مِنْ جَهْدِ الْبَلاَءِ وَدَرَكِ الشَّقَاءِ وَسُوءِ الْقَضَاءِ وَشَمَاتَةِ الأَعْدَاءِ ))

"Allahım, dözülməz bəladan, bədbəxt olmaqdan, xoşagəlməz aqibətdən və düşmənlərin sevinməsindən Sənə sığınırıq!"[3]

---

[1] "Səhih Muslim", 3/1362.
[2] "Səhih əl-Buxari", 5/172.
[3] "Səhih əl-Buxari", 6347.

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ وَتَرْكَ الْمُنْكَرَاتِ وَحُبَّ الْمَسَاكِينِ وَأَنْ تَغْفِرَ لَنَا وَتَرْحَمَنَا وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنَا غَيْرَ مَفْتُونِينَ وَنَسْأَلُكَ حُبَّكَ وَحُبَّ مَنْ يُحِبُّكَ وَحُبَّ عَمَلٍ يُقَرِّبُنَا إِلَى حُبِّكَ ))

"Allahım, xeyirxahlıq etməyi, pis əməllərdən çəkinməyi, miskinləri sevməyi, bizi bağışlamağını, bizə rəhm etməyini və hər hansı qövmə bəla göndərmək istədikdə, o bəla bizə toxunmazdan əvvəl canımızı almağını Səndən diləyirik. Sənin məhəbbətini və Səni sevənin məhəbbətini qazanmağımızı, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyimizi Səndən diləyirik".[1]

(( اللَّهُمَّ إِنَّا أَعُوذُ بِكَ مِنَ الْهَمِّ وَالْحَزَنِ، وَالْعَجْزِ وَالْكَسَلِ، وَالْبُخْلِ وَالْجُبْنِ، وَضَلَعِ الدَّيْنِ وَغَلَبَةِ الرِّجَالِ ))

---

[1] "Musnəd İmam Əhməd", 5/243.

"Allahım, üzüntü və kədərdən, acizlik və tənbəllikdən, xəsislik və qorxaqlıqdan, borc altında qalmaqdan və insanların [məni] sıxışdırmasından Sənə sığınıram!"[1]

(( اللَّهُمَّ أَحْسَنْتَ خَلْقِي فَأَحْسِنْ خُلُقِي ))

"Allahım, Sən məni gözəl biçimdə yaratdın, əxlaqımı da gözəl et!"[2]

(( اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَحُسْنِ عِبَادَتِكَ ))

"Allahım! Səni zikr etmək, Sənə şükr etmək və Sənə gözəl şəkildə ibadət etmək üçün mənə yardım et![3]

---

[1] "Səhih əl-Buxari", 2893.

[2] "Musnəd İmam Əhməd", 1/403.

[3] "Səhih İbn Hibban", 2021; "əl-Ədəb əl-Mufrad", 690.

Sonda Allahdan istəyimiz budur ki, yer üzündə sülhün bərqərar olmasını istəyən sülhsevər insanlara yardım etsin, onlara əmin-amanlıq bəxş etsin, habelə, cahilləri hidayətə qovuşdursun, zalımların isə tezliklə layiqli cəzasını versin.

Ey aləmlərin Rəbbi olan Allahım, məmləkətimizə və digər müsəlman ölkələrinə əmin-amanlıq və arxayınlıq bəxş et!

Allahım, məmləkətimizdə bizə əmin-amanlıq bəxş et!

Allahım, bizə haqqı haqq olaraq göstər və bizi haqq yola yönəlt, habelə, bizə batili batil olaraq göstər və bizi ondan uzaq et!